# Rənglərin dili ilə danışan istedadlı gənc

Nərmin Hümmətzadə 1998-ci ildə Bakıda anadan olub. Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika internat məktəbinin XI sinfində təhsil alır. Dərslərini yaxşı oxumaqla bərabər eyni zamanda rəsm həvəskarıdır. O, Bakı şəhəri, Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəsm studiyasının üzvüdür. Mərkəzdə rəsm sənətinin sirlərini öyrənir. "Danışan rənglərim" adlı fərdi rəsm sərgisində Nərminin 100-ə yaxın rəsm və əl işləri nümayiş olunub. Gənc rəssam yaradıcılıq mərkəzinin fəxri üzvü kimi vaxtaşırı olaraq rayon, şəhər, respublika, hətta beynəlxalq miqyaslı müsabiqə və sərgilərdə fəal iştirak edir. 11 yaşında olarkən o, qeyri-hökumət təşkilatları tərəfindən keçirilən "Mən də rəssam olmaq istəyirəm" adlı layihədə nümunəvi yaradıcılıq işinə görə "Qran pri" mükafatına layiq görülüb. Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin təşkil etdiyi "Bayrağımız qürur




mənbəyimizdir" adlı rəsm müsabiqəsində isə sertifikat və diplomla mükafatlandırılıb. O, Amerika, Çexiya, Polşa, Yunanıstan və s. ölkələrdə keçirilən rəsm müsabiqələrində Azərbaycanı layiqincə təmsil edib. Ən böyük uğuru 2012-ci ildə olub. Həmin il Polşada keçirilən gənc rəssamların Beynəlxalq sərgisində I yeri tutub. Qeyri-adi istedad sahibi olan Nərmin Hümmətzadə rənglərin dili ilə öz zəngin yaradıcılıq fəlsəfəsini ifadə edə bilir. Nitqi qüsurlu olsa da yaradıcılıq potensialı güclüdür.

Rəsm müəllimi Nərmin Abdullayeva da öz yetirməsi haqqında bu fikirdədir: "-Nərmin çox istedadlı qızdır. Tanrı ona fitri istedad verib. Biçmə, toxuma işlərində o, muncuqlardan çox gözəl kompozisiyalar yaradır. Mənzərə mövzusunu çox sevir. Hazırda onun rəsmlərinin kataloqu hazırlanıb".

Qeyd edək ki, Nərmin 2 ildir İstedadlı Əlillər İctimai Birliyinin fəal üzvüdür. Birlik tərəfindən Dövlət Xalça Muzeyində keçirilən sərgilərdə fəal iştirak edir və muzeyin rəhbərliyi tərəfindən diplomla mükafatlandırılıb. UNESCO-nun 70 illik yubileyi çərçivəsində 21 sentyabr Beynəlxalq Sülh Gününə həsr olunmuş "Sülh naminə birləşək!" mövzusunda keçirilən respublika rəsm müsabiqəsində isə II yerə layiq görülüb.

Nərmin bu il XI sinfi bitirir və çox əzmlə buraxılış imtahanlarına hazırlaşır. Arzusu ali məktəbə qəbul olub rəssamlıq sənətinə yiyələnməkdir.